**Azərbaycan Tibb Universtetinin İctimai Səhiyyə fakultəsinin**

**03.11.2022-ci il tarixli**

**Fakultə Elmi Şurasının iclasının**

**Q Ə R A R I**

***İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:***

I. 1. “2021/2022-ci tədris ilində dekanlığın gördüyü işlərin hesabatı və yeni dərs ilində fakültə kollektivinin vəzifələri” barədə İctimai Səhiyyə Fakültəsinin dekanlığı tərəfindən hazırlanmış və fakültənin akademik məsləhətçisi N.Məmmədovanın təqdim etdiyi hesabat qənaətbəxş hesab edilsin.
2. ATU-nun Rezidentura və magistratura şöbəsinin müdir müavini Ə.Məmmədovanın illik hesabatı qənaətbəxş hesab edilsin.
3. İctimai səhiyyə fakültəsi kafedralarında tədris prosesinin, tədris-metodik sənədlərin yoxlanılmasının nəticələri barədə Fakültə metodik komissiyanın sədr müavini dos. Ş. Balayevanın təqdim etdiyi hesabat qənaətbəxş hesab edilsin.

II. Kafedra müdirlərinə tapşırılsın ki:
1. Kafedraların fəaliyyətini əks etdirən tədris-metodik sənədlərin (kafedranın iş planı, müəllimlərin fərdi iş planı və jurnalları, dərs cədvəlləri, yük jurnalları, açıq mühazirələrin , dərslərin cədvəli və s.) vaxtında və düzgün doldurulmasına nəzarət gücləndirilsin;
2. Kafedralarda fakültə və ixtisaslar üzrə tədris olunan fənlərin proqramlarına uyğun mühazirə və praktik məşğələ materiallarının mətnlərinin, dərsliklərin, sillabusların
(3 dildə) amu.edu.az saytında yerləşdirilməsi təmin edilsin;
3. Kafedra tərəfindən İM-ə təqdim olunan testlərin ekspert professor-dosent heyəti tərəfindən yenidən baxılmasına (testlərin tərtibatı zamanı tədris proqramına, istinad edilən ədəbiyyatların tədrisdə istifadə olunan materiallara uyğunluğu, testlərdə 2 və ya daha çox düzgün cavabın olmaması və s.) nəzarət edilsin;
4. Kafedranın ekspertləri tərəfindən hazırlanan və İM-ə təqdim olunan testlərə kafedra müdiri məsuliyyət daşıyır.
5. Qış imtahan sessiyası üçün test sualları noyabrın 15-nə kimi tərtib edilərək İM-ə təqdim edilsin;

6. Dərslərin keyfiyyətini yüksəltmək və səmərəliliyini artırmaq məqsədilə kafedralarda tədris prosesinin gedişinə və nizam-intizam qaydalarına ciddi nəzarət edilsin.

III. Elmi Şuranın qərarları kafedra iclaslarında 3 iş günü müddətində müzakirə olunsun və protokol dekanlığa təqdim olunsun.

IV. Dekanlığa tapşırılsın ki, Elmi Şurada verilən qərarların icrasına nəzarət etsin.

Sədr: prof. A.Ə.Ağayev

Elmi katib: dos. G.X.İbrahimova